# Bakı Slavyan Universitetində IX Beynəlxalq elmi konfrans işə başlayıb





Bakı Slavyan Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda IX Beynəlxalq elmi konfrans işə başlayıb.

Konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etmiş, abidələri önünə əklil və gül dəstələri qoymuşlar.

Konfransda xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nüfuzlu institut və universitetlərinin nümayəndələri, Milli Məclisin deputatları, respublikamızın qabaqcıl təhsil işçiləri, tanınmış pedaqoqlar, universitetin müəllim və tələbələri iştirak edirdilər.

Konfransı giriş sözü ilə açan Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva ikigünlük tədbirin məqsədi, proqramı və iş prinsipi barədə məlumat verdi. Rektor artıq ənənə halını almış konfransın ulu öndər Heydər Əliyevin siyasi-elmi irsinin öyrənilməsinə, dövlətçilik təcrübəsinin araşdırılmasına, ümummilli lider tərəfindən irəli sürülmüş azərbaycançılıq ideologiyasının tədqiqinə həsr edildiyini bildirdi. Ulu öndərin qısa müddətdə müstəqil Azərbaycanı sabit, inkişaf etmiş qüdrətli bir dövlətə, regionun lider ölkəsinə çevirdiyini vurğuladı. Qeyd olundu ki, bu gün Azərbaycan iqtisadi modeli dünyanın bir çox dövlətləri tərəfindən öyrənilir. Dünya şöhrətli siyasətçi azərbaycançılıq ideologiyasını dövlət siyasətinin tərkib hissəsinə çevirməklə dövlətçiliyin milli-mənəvi dəyərlər üzərində yüksəlməsinin vacibliyini bir daha təsdiqləmişdir. Xarici ölkələrdən gələn qonaqların təkrarən bu konfransda iştirak etmələri onu göstərir ki, onları Azərbaycana bağlayan Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyevə rəğbət və ehtiramlarıdır.

Sonra ümummilli lider Heydər Əliyevin ictimai-siyasi və idarəçilik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunmuşdur.

Çıxış edənlər beynəlxalq səviyyəli konfransda iştiraklarından məmnunluqlarını bildirmiş, tədbirin Azərbaycan elminin təbliğində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafında rolundan danışmışlar. Bildirilmişdir ki, Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını ümummilli liderin azərbaycançılıq ideologiyası təşkil edir.

Sonra konfrans işini "Heydər Əliyev və azərbaycançılıq ideologiyası", "Heydər Əliyev və qloballaşan dünyada Azərbaycan" bölmələri üzrə davam etdirmişdir. Konfrans çərçivəsində Belarus Dövlət Pedaqoji Universiteti (BDPU) ilə BSU arasında telekörpü yaradıldı. Telekörpünü BDPU tərəfdən rektor Aleksandr Juk, BSU tərəfdən isə universitetin elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov apardılar. Konfransın gedişi zamanı Çexiyanın Mendel Universiteti ilə BSU arasında əməkdaşlığa dair müqavilə imzalandı. Türkiyənin Pamuqqala Universitetinin nümayəndəsi Mehmet Şahin tərəfindən "Nargin faciəsi və Nuru paşa" mövzusunda tədbir keçirildi.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 4 may.- S.7.